*Gülnar MURADLI*

# MEDİA ORQANININ (TELERADİO) İDARƏ OLUNMASINDA TƏŞKİLATİ STRUKTRUN ƏHƏMİYYƏTİ

**Ключевые слова:** телерадиокомпании, структура управления, вещание
**Key words:** teleradio, management structure, broadcasting

## РЕЗЮМЕ

В данной статье указаны этапы развития определенных телерадиокомпаний, начиная с деятельности до структуры управления. Статья указывает особенности данного этапа, стратегии менеджмента телерадиокомпании и ее важность.

# SUMMARY

In this article, the subject we want to deal with is the stage from the commencement of any Tele-radio Station to the Governing Body. The article emphasizes the details of the stage, the management strategy of tele-radio body and the importance of this strategy for this TV-radio station.

Azərbaycan Respublikasında teleradio yayımı milli teleradio sisteminin əsasını təşkil edən dövlət, bələdiyyə, özəl və ictimai yayımçılar tərəfindən həyata keçirilir. Bu yayımçıların hər biri eyni hüquqlara malikdir və qanun qarşısında bərabərdir. Yayımçıların əsas fərqləri maliyyələşmə,reklam və gəlir formalarıdır:

1) Dövlət yayımçısı dövlətin və cəmiyyətin mənafeyinə yönəlmiş məlumatlandırıcı, maarifləndirici və əyləndirici proqramlar yayımlayır; müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunmuş əsasnamə ilə fəaliyyət göstərir.

2) Bələdiyyə yayımçısı yerli özünüidarəetmə orqanı tərəfindən təsis olunur və reyestrdən keçir. Bu zaman yerli büdcə, reklamdan daxilolmalar və qanunla qadağan olunmayan digər mənbələr, həmçinin yerli rəy sorğusu yolu ilə qəbul edilən qərarla müəyyənləşdirilmiş abonent haqqı hesabına maliyyələşdirilir; ayrılıqda təmsil olunduğu ərazinin, bütövlükdə cəmiyyətin mənayeyinə yönəlmiş məlumatlandırıcı, maarifləndirici və əyləndirici proqramlar yayımlayır; teleradio fəaliyyətinin hüquqi rejimini bu qanunun müddəalarını nəzərə almaqla, müstəqil şəkildə müəyyənləşdirir. Bələdiyyə yayımçısı bir və ya bir neçə yerli özünüidarəetmə orqanı tərəfindən, yaxud fiziki və hüquqi şəxslərlə birlikdə təsis oluna bilər. Azərbaycanda heç bir bələdiyyə yayımçısı fəaliyyət göstərməsə də, təsis strukturu mövcuddur.

3) İctimai yayımçı Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq yaradılmışdır və Yayım şurasına namizədlər siyasi fəaliyyətlə məşğul olmayan, üzvlərinin sayı min nəfəri ötən qeyri- kommersiya təşkilatları, ic-

timai, yaradıcı, dini və vətəndaş birlikləri, həmçinin Milli Elmlər Akademiyası tərəfindən irəli sürülür və müsabiqə qaydasında seçilir; qanunla başqa hal nəzərdə tutulmayıbsa, abonent haqqı hesabına maliyyələşdirilir. İctimai yayımçının teleradio fəaliyyəti müvafiq qanunla və həmin qanunda müəyyən olunmuş qaydada təsdiq olunan Nizamnamə ilə tənzimlənir.

4) Özəl yayımçı Azərbaycan Respublikasının ərazisində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları və ya nizamnamə kapitalı Azərbaycan Respublikasında məskunlaşan Azərbaycan Respublikasının vətəndaşlarına məxsus olan hüquqi şəxslər tərəfindən təsis edilə bilər. Özəl yayımçıların dövlət qeydiyyatı Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə həyata keçirilir. Azərbaycan Respublikası Kostitusiyasına əsasən bəzi şəxslər özəl yayımçı ola bilməz :

a) ağır və ya xüsusilə ağır cinayətlərə, ictimai mənəviyyat əleyhinə olan cinayətlərə görə əvvəllər məhkum edilmiş, həmçinin məhkumluğu ödənilməmiş şəxslər;

b) fəaliyyət qabiliyyətsizliyi, yaxud fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması məhkəmə tərəfindən təsdiq edilmiş şəxslər;

c) siyasi partiyalar;

d) dini qurumlar.

Özəl teleradio yayımçısı qanunla qadağan edilməyən bütün mənbələr hesabına maliyyələşdirilə bilər. Hər bir yayımçı müəyyən menecment struktruna malikdir. Bu struktur idarəetmə sisteminin bir parçasıdır və yayım siyasətinin əsasında formalaşır. Hazırda dövlət yayımçılarına AzTV, İdman Azərbaycan, Mədəniyyət TV kimi kanalları misal göstərmək olar. Dövlət yayımçıları, xüsusilə Aztv kanalının idarəetmə prinsipinə uyğun şəkildə formalaşır. Televiziyanın fəaliyyətini Baş Proqram Direktorluğu tənzimləyir. Qurumun Tərkibinə Proqramlaşma, planlaşma və analitik, buraxılış və əlaqələndirmə şöbələri daxildir.Proqram Direktorluğu reklam çarxlarını efirdə “Televiziya və Radio haqqında” qanunun şərtlərinə uyğun yerləşdirilməsindən əlavə, həm də istehsalını təmin edir. Kanal ümumilikdə televiziya və radio redaksiyalarından ibarətdir.

İctimai kanal öz daxilində departamentlər şəklində fəaliyyət göstərir. Bu yayımçının əsas hədəfi obyektiv və düzgün informasiya siyasəti aparmaqdır. İctimai yayımçı menecment strukturunda Avropa təcrübəsini əsas götürür. Bu kanalın reklam strategiyası dövlət televiziyaları qədər məhdud olmasa da, özəl televiziyalar qədər sərbəst də deyil. İdarəetmə sistemində auditoriyanın rəyini də daim nəzərə alan bu yayımçı müxtəlif yollarla sorğular keçirir. Auditoriyanın abunəsi hesabına formalaşması nəzərdə tutulsa da, hələ ki dövlət dəstəyi və reklamdan gələn gəlirlə fəaliyyətini davam etdirir.

Özəl teleradio yayımçılarına Space TV, Lider TV, ATV, Xəzər TV, ARB, CBC Sport kimi kanalları misal çəkmək olar. Bu yayımçıların hər biri öz idarəetmə struktruna malikdirlər. Özəl yayımçılar birbaşa reklam gəliri üzərinə formalaşır. Bu səbəbdən də həmin teleradio şirkətləri özlərinin menecment strategiyasına, demək olar ki, daha çox diqqət ayırır. Bu kanallar arasında olan rəqabət onların marketinq bazarında da fəaliyyətini sürətləndirir. Bu kimi səbəbdən də özəl kanallar menecment strukturlarını daha çox inkişaf etdirməyə meyilli olurlar.

Özəl teleradio yayımçıları bir çox fərqli idarəetmə strukturlarına malik olsalar da, onlar arasında oxşarlıqlar da mövcuddur. Hazırda Azərbaycanda özəl yayımçılar daha çox xəbər və əyləncə mərkəzli yayım formatlarına üstünlük verirlər. Digər hallarda auditoriya itirəcəyindən ehtiyyat edən yayımçılar öz idarəetmə strategiyalarını daha çox inkişaf etdirməyə məcburdurlar.

Bir çox məşhur teleradio kanalları öz idarəetmə strukturlarını daim dəyişdirməyə və zamanın axarına uyğunlaşmağa çalışırlar. Auditoriyanın istəyini nəzərə almaqla yanaşı, onlar öz materiallarını auditoriyaya necə izlətmək lazım olduğunu da yaxşı bilirlər. BBC, CNN, NTV, Al Jazeera kimi özəl yayımçılar departamentlər, yayım şöbələri, redaksiyalar halında idarə edilirlər. Onların müxtəlif ölkələrdə də informasiya departamentləri fəaliyyət göstərir. Bu gün həqiqi mənada media və menecment struktrunu özünəməxsus şəkildə idarə edən bu teleradio yayımçıları informasiya mühitində öz qanunlarını yazır və onları bir ənənə halına gətirməyi bacarır.

# ƏDƏBİYYAT:


1. "Televiziya və Radio Yayımı haqqında" Azərbaycan Respublikası Konstitusiyasının Qanunu
2. Televiziya Jurnalistikası
3. TRT Akademisi; Olağanüstü Dönemlerde Yayımcılık
4. http://www.aztv.az/program.php?lang=en
5. http://www.itv.az/index.php/az/proqram/televiziya
6. http://news.atv.az/
7. http://www.spacetv.az/
8. http://www.hdtvler.tv/lider-tv-az/
9. http://unec.edu.az/application/uploads/2015/12/194_menecment.pdf



**Elmi rəhbər:dos.A.Kərimova**